# Yaxşıların yaxşısı



**Bu günlərdə əsası böyük mütəfəkkir H. B. Zərdabi tərəfindən qoyulmuş milli mətbuatımızın 140 illiyini qeyd edəcəyik. Mətbuatımızın inkişafına dəyərli töhfələr vermiş görkəmli şəxsiyyətlər içərisində uzun illər müxtəlif respublika idarələrində mətbuata rəhbərlik etmiş tanınmış dövlət xadimi Rəşid İsmayıl oğlu Mahmudovun da özünəməxsus yeri vardır. Bu kiçik yazımda onun şərəfli fəaliyyətini xatırlayır, insani keyfiyyətlərindən söhbət açmaq istəyirəm.**

Həyatda yaxşı insanlar çoxdur. Onların arasında daha yaxşıları da var, belə insanlara yaxşıların yaxşısı, Allah adamı deyirlər. Ulu Tanrı bu adamları sanki xeyirxahlıq, insanların qayğısını çəkmək üçün yaratmışdır. Taleyimdən razıyam ki, bütün həyatım boyu belə insanların əhatəsində olmuşam. Rəşid İsmayıl oğlu Mahmudov da belə insanlardan idi.

Yaxşılıq, xeyirxahlıq, qayğıkeşlik yüksək ziyalılıqdan, alicənablıqdan, ağayanalıqdan doğur. İlk tanışlığımız və dostluğumuz 1967-ci ildən başlayan Rəşid müəllimdə bütün bu cəhətlərlə yanaşı, səmimilik, sadəlik vardı. Bu da onun alicənablığından və ağayanalığından irəli gəlirdi.

O zaman məni Kənd Təsərrüfatı Nazirliyində təbliğat idarəsinin rəisi vəzifəsinə yenicə təyin etmişdilər. İdarənin işi kənd təsərrüfatında elmin nailiyyətlərini və qabaqcıl təcrübəni şifahi və mətbu yollarla yaymaqla yanaşı nazirliyin müxtəlif təlimatlarını çap etdirib, rayon təşkilatlarına çatdırmaqdan, elmi-tədqiqat institutlarının əsərlərini dərc etdirməkdən, kənd təsərrüfatı muzeyinin və xalq universitetlərinin fəaliyyətinə rəhbərlikdən, kənd təsərrüfatı qabaqcıllarının nailiyyətlərini ümumittifaq və respublika sərgilərində nümayiş etdirməkdən və başqalarından ibarət idi. Cəmi 5-6 nəfər işçisi olan bir idarənin bu qədər işin öhdəsindən gəlməsi müşkül məsələ idi. Nəşriyyat məsələləri xüsusilə çətin və pərakəndə vəziyyətdə idi. İdarə formal olaraq buna rəhbərlik etsə də, hərə bir yolla öz yazılarını dərc etdirir, bu işə müqavilə ilə işləyən təsadüfi adamlar cəlb olunurdu. Bu da çoxlu nöqsanlara gətirib çıxarırdı. Bunların qarşısını almaq üçün idarənin tərkibində nəşriyyat şöbəsi və kiçik bir mətbəə yaratmaq qərarına gəldik. Təkliflərimizi hazırlayıb nazirimiz Məmməd Xəlilovun imzası ilə Azərbaycan KP MK-ya göndərdik. Məktub baxılmaq üçün MK-nın mətbuat, radio və televiziya bölməsinin rəhbəri Rəşid Mahmudova verilmişdi. O zaman çoxları təklifimizin baş tutacağına inanmır, buna şübhə edirdilər. Lakin Rəşid müəllimin qayğıkeşliyi sayəsində təklifimiz qəbul edildi. Məsələnin vacibliyini bizdən və MK-nın kənd təsərrüfatı şöbəsindən aldığı əlavə məlumatlarla ətraflı əsaslandırıb, nəşriyyat şöbəsinin, sonra da mətbəənin yaradılmasına kömək etdi.

Şöbənin strukturunun hazırlanmasında, onun kadrlarla möhkəmləndirilməsində də bizə yaxından kömək etdi. Şöbəyə səriştəli rəhbər tapmaq lazım idi. O zaman "Kənd həyatı" jurnalında məsul katib işləyən təcrübəli jurnalist və kənd təsərrüfatı sahəsini yaxşı bilən Əhməd Qasımov bu vəzifəyə keçirildi. Kənd rayonlarından olan və universitetin jurnalistika fakültəsini bitirən məzunlar - Üzeyir Bayramov, Xudu Mustafayev, Şahmar Əkbərzadə şöbənin işinin dirçəlməsinə böyük səy göstərdilər. Sonralar ilk addımlarını burada başlayan Şahmar Əkbərzadə məşhur şair, yazıçı-publisist oldu, Üzeyir Bayramov isə uzun illər təbliğat idarəsinin rəisi işlədi.

Mən hələ Kənd Təsərrüfatı Nazirliyində işləyirdim. Rəşid müəllim zəng edib dedi ki, əslən Laçın rayonundan olan və jurnalistika fakültəsini bitirən Ələmdar Tağıyev adlı gənc bir mütəxəssis ona müraciət edərək işlə təmin olunmasına kömək etməyi xahiş etmişdir. Qeyd etdi ki, kənddə böyüyüb, kənd təsərrüfatını da yaxşı bilir, üstəlik ali təhsilli jurnalist kimi təbliğat işimizə gərəkli ola bilər. Doğrusu, kənd təsərrüfatı muzeyində bizim belə bir mütəxəssisə ehtiyacımız var idi. Muzey əsas işi ilə bərabər, rayonlarda səyyar sərgilər təşkil etməklə də məşğul olurdu. Bunu hər adam bacarmırdı. Rəşid müəllimin tövsiyəsi ilə Ələmdar Tağıyevi bu işə qəbul etdik. Tezliklə o, burada işi canlandırdı, bacarıqlı təşkilatçı kimi muzeyin direktoru Gülsüm xanım Əbilqasımovanın ən yaxşı köməkçisi oldu.

Sonra biz Rəşid müəllimlə 1971-1973-cü illərdə MK-da, o, təbliğat, mən isə kənd təsərrüfatı şöbəsində bir yerdə işlədik. Bu dövrdə elə bir gün olmazdı ki, görüşməyək. Kənd təsərrüfatında elmin və qabaqcıl təcrübənin təbliği yolları, onların dövri mətbuatda, radio və televiziyada işıqlandırılması barədə fikir mübadiləsi edirdik. Bütün bu vasitələrdən səmərəli istifadə edilməsində Rəşid müəllim bizə əlindən gələn köməyi əsirgəmirdi. Respublika radiosu və televiziyası, qəzetlər, xüsusilə o zaman dərc edilən "Sovet kəndi" qəzeti qabaqcıl təcrübənin əsl tribunasına çevrilmişdilər.

1973-cü ildə Rəşid müəllimi Zaqatalaya rayon partiya komitəsinin birinci katibi vəzifəsinə göndərdilər. O, burada yeddi il — 1980-ci ilədək işlədi. Bu elə bir dövr idi ki respublikamızda ulu öndər Heydər Əliyevin rəhbərliyi altında böyük quruculuq işləri gedirdi. Azərbaycan başdan-başa qabaqcıl təcrübə məktəbinə çevrilmişdi. Rəşid Mahmudovun gərgin əməyi və qayğısı sayəsində Zaqatala bu tədbirlərin ön cərgəsində gedən rayonlardan biri idi. Həm ərzaq, həm də yem bitkisi olan qarğıdalının becərilməsində, heyvandarlığın, tütünçülüyün, baramaçılığın, fındıqçılığın, gülçülüyün inkişaf etdirilməsində rayon böyük müvəffəqiyyətlər qazanmış, dəfələrlə respublikanın və ittifaqın keçici qırmızı bayraqlarına layiq görülmüşdü.

Respublikamıza təcrübə mübadiləsinə gələn qonaqlar Zaqatalada becərilən, adam boyundan xeyli yüksək qarğıdalı sahələrini, ətirli qızılgül plantasiyalarını, heyvandarlıq komplekslərini görüb, heyran olurdular. Qonaqları çox zaman özü müşayiət edər, onlara əldə edilən nailiyyətlər, ən əsası isə bu nailiyyətləri ərsəyə gətirən əmək adamları, bu adamlara göstərilən qayğı, tarla düşərgələrinin, sağıcı evlərinin fəaliyyəti barədə ağız dolusu danışardı.

Qonaqlar buradan evlərinə rayon, onun rəhbəri, zəhmət adamları barədə xoş təəssüratlar və bir də Rəşid müəllimin onlara suvenir kimi təqdim etdiyi gül yağı şüşəsi ilə qayıdardılar.

1980-ci ildə Rəşid müəllim yenidən MK-ya, təşkilat şöbəsinə qayıtdı və biz bir il birlikdə işlədik. Sonrakı illərdə müxtəlif idarələrdə və ictimai təşkilatlarda işləsək də, evlərimiz bir-birinə yaxın olduğundan tez-tez görüşürdük. O, son zamanlar keçirdiyi ağır xəstəliyə baxmayaraq, çətin də olsa şəhərə çıxmağa, insanlarla ünsiyyətdə olmağa çalışırdı. Hər dəfə görüşəndə özünəməxsus qayğıkeşliklə hal-əhval edər, ailəmiz və dostlarımız haqqında maraqlanardı. Təəssüflər olsun ki, bu da çox sürmədi, ağır xəstəlik onu evdən çıxmağa qoymadı. Yanına getməyə də razılıq vermirdi, tez-tez telefonla danışırdıq. Sağ olsun ömür-gün yoldaşı Məhbubə xanım, həmişə telefona o cavab verirdi. Bəzən Məhbubə xanımın köməkliyi ilə özü zəng edirdi. Son zənglərindən birində məndən akademik Tofiq Köçərlini soruşdu, dedi ki, çoxdandır xəbərim yoxdur, həmişə zəng edərdi, indi nəsə zəngi yoxdur, çox nigaranam. Bilmədim nə cavab verəm, hörmətli Tofiq müəllim bir neçə ay əvvəl dünyasını dəyişmişdi, bunu ona demək olmazdı. Dedim nigaran qalmayın, lap yaxşıdır, indi burada yoxdur, gələn kimi deyərəm sizə zəng edər.

Bəli, xəstə yatağında da heç kəsi unutmurdu, özünü yox, dostlarını, tanışlarını düşünürdü. Belə idi Rəşid müəllim! Yalnız çox həssas ürəkli, daxilən zəngin, nurlu və xeyirxah insanlar belə ola bilərlər! Onlar heç zaman unudulmur, həmişə xatirələrdə yaşayırlar.

**Surxay TAĞIZADƏ,**
***Əməkdar Kənd Təsərrüfatı işçisi.***